# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ VƏ ONUN AZƏRBAYCAN CÜMHURİYYƏTİ ƏSƏRİ



*İsgəndər ATİLLA,*
*ADPU-nun dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*

Hər bir Azərbaycan türkü, azərbaycanlı müsəlman Şərqində ilk demokratik respublikasının məhz Azərbaycanda yaranması ilə fəxr edə bilər. Ölkə prezidenti İlham Əliyevin 2018-ci ili Azərbaycan Xalq Cümhuriyyəti ili elan etməsi və Cümhuriyyətin 100 illiyinin qeyd edilməsi haqqında sərəncam verməsi bizi sevindirməyə bilməz. Hesab edirəm ki, sərəncamın AXC-nin tarixinin daha müfəssəl və dərindən öyrənilməsində, müstəqil dövlətimizin dünyada daha yaxşı tanıdılmasında mühüm əhəmiyyəti olacaqdır.

M.Ə.Rəsulzadə Azərbaycan və türk dünyasının görkəmli siyasi xadimi və ideoloqlarından biridir. Onun "Azərbaycan Cümhuriyyəti" əsəri ensiklopedik bilik verən məzmuna malikdir. Böyük istiqlalçı əsərini Türkiyədə mühacirətdə olarkən yazmış və 1923-cü ildə İstanbulda çap etdirmişdir. Bu əsərilə özünün böyük siyasi xadim kimi tanıtmışdır. On bir bölmədən ibarət olan əsərdə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə, bolşevik Rusiyası tərəfindən işğalına, Qızıl Ordunun əsgər və zabitlərinin Azərbaycanda törətdikləri qırğın və vəhşiliklərə aid əsərdə son dərəcə qiymətli məlumatlar vardır. Biz məqaləmizdə əsərin daha çox "Bolşevik istilası", "Şimdiki vəziyyət" və "Qızıl imperializm" bölmələrini şərh və təhlil etmişik. Belə bir nəticəyə gəlmişik ki, o, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda həmişə prinsipial mübarizə aparmış, ardıcıl siyasət yeritmişdir. Cəlladbaşı V.Pankratovun Bakıda törətdiyi vəhşilik və qətliamı tənqid və ifşa etmişdir. Bolşevik istilasına qarşı qəzalarda baş vermiş üsyanların tarixi əhəmiyyətinə ayrıca diqqət yetirmişdir. Qızıl imperializmin gec-tez süqut edəcəyini sanki bir peyğəmbər kimi əvvəlcədən görmüş, bu haqda fikrini böyük bir inamla ifadə etmişdir.

Azərbaycan və türk dünyasının görkəmli siyasi xadimi M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" əsəri ensiklopedik məzmuna malikdir. Əsər siyasi publisistikamızın ən gözəl nümunəsidir. Əsərdən müəllifin yüksək siyasi mədəniyyətə və siyasi təfəkkürə malik olduğunu aydın görmək olar. Böyük siyasi məzmuna və mahiyyətə malik olan əsər sovet rəhbərlərini, o cümlədən İosif Stalini maraqlandırmış, hətta narahat etmişdir. Belə bir dəyərli əsərin hər bir müəllimin, alimin və ziyalının maşaüstü kitabı olması məsləhətdir. Müəllif burada Azərbaycanda 1918-1930-cu illərdə baş vermiş ictimai-siyasi hadisələri, Azərbaycan ədəbi və milli intibahını, qardaş Türkiyənin Azərbaycana imdadını, Xəlil paşanın Moskvaya nə məqsədlə getməsini, Mondrus müqaviləsini, Cümhuriyyətin süqutunun səbəblərini, hakimiyyətin bolşeviklərə təhvil verilməsini, bolşevik istilasını geniş işıqlandırmış, dərin və ətraflı siyasi təhlilini vermişdir.

Mən bu qiymətli əsərin "Bolşevik istilası", "Şimdiki vəziyyət" və "Qızıl imperializm" bölmələri üzərində məxsusi dayanmaq istəyirəm. Bəri başdan deməl istəyirəm ki, ulu öndərin Azərbaycan məsələsində prinsipial mövqeyi, istiqlaldankənar heç bir məsələdə güzəştə getməməsi təqdirə layiqdir və qürur doğurur.

1920-ci ilin əvvəllərindən başlayaraq Bakıda dəhşətli hadisələr baş verir. Dəhşətli hadisələr bolşeviklər və Qızıl Ordunun zabit və əsgərləri tərəfindən törədilir. M.Ə.Rəsulzadənin yazdığına görə, Qızıl Ordunun siyasi şöbəsinin rəisi V.A.Pankratovun adı gələndə adamların canına titrətmə düşürdü. Bakıda hökumətin ən məsul mövqeləri əcnəbilərə verilmişdi. Adamlar harada gəldi öldürülür, güllələnir, təhqir edilirdi. O, əsərində bolşevik istilasının vəhşət və dəhşətlərini olduğu kimi təsvir edərək yazır: "Bakının Qızıl Ordu tərəfindən işğalından iki gün sonra türk komandanlar rus yoldaşlarla əvəz edildi. Fəqət iş bununla da qalmadı. "Əmiri-xeyir"i qəsid edən nə qədər Osmanlı zabiti varsa, həpsini ya həbs və yaxud qanı dişarı etdilər."

Xalq bolşevik istilasına qarşı ayağa qalxır. Gəncə, Ağdam, Şuşa, Şəki, Lənkəran, Quba və b. qəzalarda üsyanlar baş verir. Şəki üsyanı amansızlıqla yatırılır. Qızıl Ordu Gəncə və başqa qəzalarda böyük itkilər verir. M.Ə.Rəsulzadə üsyanların əhəmiyyəti və şiddəti barəsində demişdir: "Azərbaycan Cümhuriyyətinin tarixini yazacaq müvərrix bu üsyanları tədqiq və təfsilatı ilə əlbəttə, təhrir edəcəkdir. Bu üsyanların bihudə olduğunu və səlaməti-ümumiyyəyə zərər gətirdiyini iddia edənlə var. Fəqət bu üsyanlar dəxi olmasa idi Azərbaycan xalqı bilməm hankı vəqələrlə kəndi namusunu müdafiə etmiş olduğunu isbat edəcəkdi?!" Millət böyük bir qiyama qalxmışdı. Üzərinə ixtilal və hüriyyət maskası taxmış rus qüvvəti Nerona rəhmət oxutduracaq bir şiddət və zülm ilə basıb kəsirdi. Hər tərəfdə fəaliyyətə başlayan ÇK-lar gecə-gündüz qanlı işlərinə davam edirdilər.

Belə bir vəziyyətdə gənc Azərbaycan əsgəri xalqla birlikdə üsyana qalxmaya bilməzdi. İstiqlalı əlindən alınmış xalqın üsyan etməkdən başqa çarəsi qalmamışdı. O çar Rusiyasının rejimindən daha dəhşətli bir rejim yaradan bolşevik istilasına qarşı mübarizə aparmalı idi və aparırdı. Qaniçən bolşevik istilaçılar cəlladlıq edir, yalnız üsyana qoşulan adamlara deyil, dinc əhaliyə divan tuturdular. Bakıda milliyyətpərvərlərin kökünü kəsmək üçün onları sorğu-sualsız güllələyirdilər. Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı V.Pankratov bu işdə xüsusi fəallıq və canfəşanlıq göstərirdi. "Pankratovun əmri fövqündə bir əmr yox idi. ÇK məmurunun füzulluğu o dərəcəyi bulmuşdu ki, Azərbaycan komissarları rəisi bulunan Nəriman Nərimanovun kəndisini belə tovqif eyləmişlərdi."

Ermənilər Azərbaycan və Türkiyə torpaqlarında dövlət yaratdıqdan sonra daha da fəallaşmışdılar. Ermənistan bolşevik hökuməti təsis edilər-edilməz Azərbaycana qarşı torpaq iddiasında bulundu. Xarici qüvvələrin köməyilə Naxçıvan və Zəngəzuru ələ keçirməyə çalışdılar. M.Ə.Rəsulzadə Zəngəzurun ermənilərə verilməsində N.Nərimanovun əli olduğunu qeyd edir və yazır: "Ermənistanda dəxi bolşevik hökuməti təsis edər-etməz rus siyasəti Nəriman bəyin (N.Nərimanovun – İ.A.) səxavətkar ağzı ilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını mütəntən bir surətdə Ermənistana hədiyyə etdi."

Naxçıvan məsələsi barəsində bir neçə söz. M.Ə.Rəsulzadə bu haqda yazır: "Ermənistan Cümhuriyyəti bolşeviklər tərəfindən istila edildikdə Azərbaycan bolşevik hökumətinin rəisi Nəriman Nərimanov Naxçıvan qəzasını Ermənistana hədiyyə etmişdi. Vəqtilə ingilislərlə amerikalılar da Naxçıvanı ermənilərə tabe görmək istəmiş, bu xüsusda təşəbbüs eyləmiş, fəqət, müvəffəq olmamışlardı. İki sənədən ziyadə (1918-1919-cu illərdə - İ.A.) əlində silah alaraq Ermənistana ilhaq əleyhinə cəhədətlə hərb edən naxçıvanlılar bu dəfə də israr etdilər. Nərimanın (N.Nərimanovun – İ.A.) boxşişi quru sözdən ibarət olub qaldı. Ermənistan Cümhuriyyəti Naxçıvan "hədiyyə"sini təslim olmaq üçün iyicə qan tökməli idi. Naxçıvanlılar isə hər tərəfə müraciət edərək Ermənistana tabe olmaq istəmədiklərini bildiriyorlardı. Bu məsələ türk heyəti-müraxxəsəsinin dəxi nəzər-diqqətini cəlb eyləmişdi. Buna görədir ki, müşahidə (11 iyul 1922-ci il tarixli Qars müqaviləsi nəzərdə tutulur – İ.A.) salis bir hökumətə tərk edilməmək şərtilə Naxçıvan qəzasını mümtaz bir vilayət şəklində Azərbaycan himayəsinə vermişdir.

Bax tarixi həqiqət budur! Yeri gəlmişkən deyim ki, Naxçıvanın Ermənistana ilhaq edilməsinə kəskin etiraz edən Naxçıvan ziyalılarından biri Hüseyn Cavid olmuşdur. O, ingilis və amerikan nümayəndələrilə görüşmüş, naxçıvanlıların Ermənistana tabe olmayacaqları haqqında "ultimatum" vermişdir.

O zaman Azərbaycanda da, Türkiyədə də vəziyyət ağır və mürəkkəb idi. Bəzi düşmən qüvvələr iki qardaş ölkəni üz-üzə qoymaq istəyirdilər. M.Ə.Rəsulzadə deməkən, bolşeviksayağı propaqanda yapır, onları düşmən etmək istəyirdilər. O, bu cür təbliğatın əleyhinə çıxaraq yazırdı: "Azərbaycan hökuməti-milliyyəsinin fəcaətli fəlakətdən daha açıqlısı bu idi ki, milliyyətpərvərlər Türkiyəyə qarşı vəfasızlıqla ittiham olunuyordu. Ehtimal ki, bəziləri hala bu qənaətlərində baqidirlər. İştə ən çəkilməz faciə bu faciədir!"

Türkiyəni Azərbaycana qarşı, Azərbaycanı Türkiyəyə qarşı vəfasızlıqda ittiham edənlərə qarşı çıxan M.Ə.Rəsulzadə yazır: "İki qardaş millət arasında təhəddüd edən sui-təfəhhüm daha acıdır, daha fəcidir. Türklüyünü anlamış Azərbaycan ilə türklük üçün qan tökən, can verən Anadolu arasındakı qardaşlıq bağını nə tarixin şimdiki Türk-Rus müxadinəti kibi təsadüfi vəqə epidozları, nə də bir taqım əşxasın siyasi xətaları çözəməz!"

Böyük siyasətçi, istiqlalçı və türkçünün dəyərli sözlərini bugünkü Azərbaycan-Türkiyə arasındakı siyasi, iqtisadi və mədəni ilişgilərə də aid etmək olar. Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı dünən də sarsılmaz idi, bu gün də sarsılmazdır.

M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" əsərindəki "Şimdiki vəziyyət" bölməsi bolşevik Rusiyasının Cənubi Qafqaz siyasətinə, Moskvanın sovet Azərbaycanına cüzi məhəlli-muxtariyyat verməsinə, V.Leninin Cənubi Qafqazın sovetləşdirilməsilə əlaqədar teleqramlarına, Sovetlər İttifaqının yaradılmasına, sovet Rusiyası ilə Türkiyə arasında 1921-ci ildə bağlanmış müqaviləyə, Stalin, Buxarin və Kamenyevin sərəncamlarına və s. məsələlərə həsr olunmuşdur. Müəllif həmin bölmədə tarixi baxımdan dünən və bu gün üçün son dərəcə əhəmiyyətli və qiymətli məlumatlar vermişdir. Azərbaycan sovet hökumətinin, siyasiyyə və iqtisadiyyatının rusların əlinə keçməsini konkret tarixi faktlar əsasında göstərmişdir. Mən onlardan bir neçəsinin adını və vəzifəsini qeyd etmək istəyirəm. Azəneft xalq maarif şöbəsinin müdiri – Barçov, Bakı Şurası rəisi – Krılov, Bakı qəzası hərbiyyə komissarı – Anefski, Xüsusi Qafqaz Ordusu komandanı – Yeqoryev və s. Bir sözlə, Azərbaycan sovet hökumətində bütün mühüm vəzifələri tutan miliyyətcə rus, erməni, yəhudi və b. idi. Bakı şəhərinin bütün inzibati və təsərrüfat orqanlarını idarə edənlər də onlar idi.

Əhalini incitməkdə, Cümhuriyyət rəhbərlərini təhqir etməkdə bəzi yerli bolşeviklər rus bolşeviklərindən geri qalmırdı. Onlardan biri Əliheydər Qarayev idi. AXC-nin süqutunda bəzi yerli bolşeviklərlə yanaşı Ə.Qarayev də mühüm rol oynamışdır. O, açıq-açığına dövlətin və millətin əleyhinə çıxır, Stalinin Azərbaycanı parçalamaq planını müdafiə edir, "Azərbaycan" adında ölkə tanımadığını bildirirdi. Bolşevik qəddarlığı və amansızlığı ilə seçilirdi. M.Ə.Rəsulzadənin sözlərilə desək, belə bir heysiyəsiz hökmranı Azərbaycan heç bir zaman görməmişdir. "Füqəra füzyuzatı" məcmuəsində onun haqqında belə yazılmışdır:

Bax şu Qarazadə Əli Heydərə,
Töhfeyi-Şirvanə, mələk-mənzərə.
Bəhri-Xəzər, xütteyi-Azərbaycan,
Görməmiş ömründə belə hökmran.

Parlamentdə antimilli və antiazərbaycan çıxışına görə M.Ə.Rəsulzadə ona demişdir: "Sən rus casusu kimi çıxış edirsən." Bu sözə görə o, M.Ə.Rəsulzadəni təhqir etmişdir. M.Ə.Rəsulzadə isə ona demişdir: "Əliheydər, bir gün səni bolşeviklərin özü güllələyəcək."

Sovet hakimiyyətinin ilk illərində Bakıda və bütövlükdə Azərbaycanda çox acınacaqlı bir vəziyyət yaranmışdı. Rus bolşevikləri başda olmaqla, ölkənin varidatı, yerüstü və yeraltı sərvətləri talan edilirdi. Xalqın maddi və mənəvi sərvətinə təcavüz edilir, o daha da yoxsullaşdırılırdı. N.Nərimanov "Təzəpir" meydanında xalqa xitab edərək deyirdi: "Biz məxsusi bir komission təşkil etdik. Bu komission əski hökumətin (Müsavat hökumətinin – İ.A.) ovqatını tədqiq edir. Bir neçə gün sonra nəticəsi elan ediləcək. O vaxt siz də görəcəksiniz ki, nə kimi xainlər (istiqlalçılar – İ.A.) sizi idarə edirmişlər." Halbuki dağıdan da, talan edən də, ölkənin sərvətini Moskvaya verən də, daşıdıran da onların özləri idi.

N.Nərimanovun yaratdığı komissiya məsələsinə toxunan M.Ə.Rəsulzadə yazırdı: "Kaç gün deyil, kaç sənə keçdi. Ə komission bu nəticəyi hala elan etməmişdir. Həm edəməz də! Çünki məmləkəti ingilislərə satdı, deyə ittiham olunan hökumətin (Müsavat hökumətinin – İ.A.) bir həbbə olsun hüquqi-millətdən əcanibə tərk etdiyini bir Nəriman (N.Nərimanov – İ.A.) deyil, bütün bolşeviklər bir araya gəlsələr də isbat edəməzlər! Fəqət, Nərimanov və yoldaşları ruslara satmadıq bir şeyi buraxmadılar. Onlar hər şeyi verdilər. Maddi, mənəvi nə varsa həpsini təslim etdilər..."

Cümhuriyyətə, onu qurub-yaradan, yaşatmaq üçün min cür əzab-əziyyətə qatlaşan, təhqir, təzyiq, tənqid və ittihamlara məruz qalanlara yalnız yerli bolşeviklər deyil, şair və yazıçılar, tarixçilər də böhtan atır, qara yaxırdılar. Bir sovet şairi bir şeirində yazırdı:

İndi xəbər verim oxucuma mən
O "millət rəhbəri" Rəsulzadədən;
Toplamış məscidə müsəlmanları,
Yağlı vədlərə tutmuş onları;
Deyir: "Türkiyəni çağıraq gərək,
Parlasın ədalət, mehri-hürriyyət,
Ucalsın göylərə şərəfi-millət!.."
- Şarlatan!
- Afərin!
- Rəhbərə bir bax!
- Vətəni yadlara bunlar satacaq!..
- Bir dayan!
- Nə dedin?
- O, bir xaindir.
Sözünün pərdəsi millətdir, dindir...
Bu yurdu talayan, dağıdan da siz.
Bu gün-sabahlıqdır səadətiniz!

Bolşeviklər bütün ölkədə var gücü ilə ruslaşdırma siyasəti aparırdılar. Diqqəti bu məsələyə yönəldən ulu öndər çar Rusiyası ilə sovet Rusiyasını müqayisə edərək, deyirdi: rus bolşevikləri zahirdə Nərimanların idarəsinə tərk etdikləri əraziyi belə əski çarizmdən daha qəddar və munid bir surətdə ruslaşdırmaqdadırlar.

*(Davamı 7-ci səhifədə)*



# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ VƏ ONUN AZƏRBAYCAN CÜMHURİYYƏTİ ƏSƏRİ

*(Əvvəli 6-cı səhifədə)*

O, əsərinin "Qızıl imperializm" bölməsində bolşeviklərin yürütdükləri Şərq siyasəti üzərində məxsusi dayanır. Hesab edir ki, bolşeviklər Azərbaycanın simasında Şərq millətlərinin xilas və nicatına aid şüarlar söyləsələr də, sözdə millətlərin hüquq, hürriyyət və istiqlalına hörmət etdiklərini bildirsələr də, əslində qırmızı imperializm siyasəti yeridirdilər. M.Ə.Rəsulzadə rus bolşevik imperializminin apardığı təcavüzkar siyasətinin mahiyyətini açır. Yalnız Rusiyanın deyil, Qərb ölkələrinin Şərq ölkələrinə qarşı apardıqları imperialist siyasəti tənqid və ifşa edir. Sovet İttifaqının siyasi mahiyyətindən danışarkən yazırdı: Moskva sovet respublikaları arasında təbii yolla deyil, güc yolu ilə, Qızıl Ordunun süngüləri sayəsində federasion yaratmışdır. Kommunizm propoqandası ilə xalqları aldadır. "Kommunizm süquta məhkumdur. Kommunizm süquta məhkum olduğu kibi süni vasitələrlə mərkəziyyəti-idarə vücudə gətirmək istəyən Moskva sistemi də məhkumi-zəvaldır. Müdhiş bir terrorist olan bu firqə (bolşevik (kommunist) firqəsi – İ.A.) üçün muslihanə bir surətdə mötədil bir hökuməti-əsriyyə şəklinə girmək, ruhiyyət nöqteyi-nəzərindən qeyri-mümkündür. Üsyanla və qanla sərkarə gələn bir qüvvət üsyan və qanla da gedəcək. Bu gün bu üsyanı yapan müntəzəm bir qüvvət yoxsa da, yarın o qüvvət, kommunizmin kəndi vücudə gətirdiyi təşkilat hüceyrəsindən olsa da doğuracaqdır..."

Nə qədər uzaqgörənliklə söylənmiş fikirlərdir?!. Belə bir müntəzəm qüvvət 1988-1990-cı illərdə Azərbaycanda meydana gəldi. Sosializm və kommunizm çökdü. Bir neçə sovet respublikasında demokratiya və müstəqillik uğrunda mübarizə başlandı. Azərbaycanda baş verən meydan hərəkatı və milli azadlıq uğrunda ümumxalq mübarizəsi Sovet İttifaqının dağılması və çökməsində əhəmiyyətli rol oynadı. M.Ə.Rəsulzadənin uzaqgörənliklə dediyi sözlər həqiqət oldu. Üsyan və qanla gələn sərkar üsyan və qanla da getdi. Biz vətənimizin azadlığı və müstəqilliyi uğrunda mübarizədə şəhidlər verdik. Qızıl imperializm yanvar qırğınını, ermənilər Xocalı faciəsi və soyqırımını törətdilər. Lakin Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Azərbaycan öz müstəqilliyi və dövlətçiliyini bərpa etdi. Cümhuriyyətinin siyasi varisi oldu.

*Əlaqə tel.: (+99451) 877 46 69 E-mail: isgender.orucaliyev@gmail.com*

**Kredo.- 2018.- 17 may.- S. 7**